# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№318/4** **17 mart 2020-ci il**

**Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın hesabatlarının, 2020-ci il üzrə iş planlarının və tərkiblərinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə iş planının 8.9-cu "Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələr ilə birgə fəaliyyətin həyata keçirilməsi" bəndinin icrası ilə əlaqədar Aparatın rəhbəri Q.Bayramov tərəfindən təqdim edilmiş Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin, Keyfiyyətə nəzarət üzrə komitənin, Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin, Beynəlxalaq əlaqələr üzrə komitənin, Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitənin, Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin, Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin, Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitənin, Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitənin, Etika, mübahisələr və intizam komissiyasının hesabatlarının, 2020-cu il üzrə iş planlarının və tərkiblərinin layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin, Keyfiyyətə nəzarət üzrə komitənin, Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin, Beynəlxalaq əlaqələr üzrə komitənin, Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitənin, Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin, Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin, Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitənin, Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitənin, Etika, mübahisələr və intizam komissiyasının hesabatları nəzərə alınsın, 2020-ci il üzrə iş planları və tərkibləri təsdiq edilsin (əlavə olunur).

2. Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitəyə (N.Talıbov), Keyfiyyətə nəzarət üzrə komitəyə (V.Kərimov), Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitəyə (N.Abbaslı), Beynəlxalaq əlaqələr üzrə komitəyə (F.Qarayev), Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitəyə (Z.Hüseynov), Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitəyə (E.Qurbanov), Şəffaflığın təminatı, dempinq və haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Ü.Fətiyev), Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitəyə (Y.Salayev), Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitəyə (A.Qurbanov), Etika, mübahisələr və intizam komissiyasına (İ.Əliyev) tapşırılsın ki, komitələrin və komissiyanın 2020-ci il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər və nəticəsi barədə ilin sonunda hesabat təqdim etsinlər.

3. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (F.İsmayılov, S.Gülməmmədov, Q.Bayramov, V.Rəhimov, M.Abbasov, V.Cavadov, Q.Əhmədov, Y.Namazəliyev, F.Kamalova, E.Behbudova) tapşırılsın ki, təhkim olunduqları Palatanın Şurası yanında komitələrin və komissiyanın 2020-ci il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin yerinə yetirilməsinə əməli köməklik göstərsinlər.

4. Müasir dövrün çağırışları nəzərə alınmaqla Auditorlar Palatasının Şurası yanında İctimai nəzarət və üzvlərlə iş üzrə yeni komitənin yaradılması məqsədəmüvafiq hesab edilsin.

5. Auditorlar Palatası Şurasının 2019-cu il 22 fevral tarixli 308/4 nömrəli qərarı qüvvədən düşmüş hesab edilsin.

6. Bu qərarın mətninin və Palatanın Şurası yanında komitələrin və komissiyanın tərkibinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**